

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 20 sentyabr 2025-ci il №67 (2976) https://mod.gov.az Qiymətı 30 qəpik


## Azərbaycan Prezidenti Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım edib




*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında Dövlət Suverenliyi Günü ilə bağlı paylaşım edib.*

*AZƏRTAC paylaşımı təqdim edir: "20 Sentyabr - Dövlət Suverenliyi Günü".*

## 20 Sentyabr - Dövlət Suverenliyi Günü

### Azərbaycan Prezidenti İlham ƏLİYEV:

***Bütün Qarabağ artıq tam nəzarət altındadır və bildiyiniz kimi, bu ərazi iki il bundan əvvəl işğalçılardan azad edildi. Elə bu günlərdə - sentyabrın 19-20-də şanlı Ordumuz separatçılığa son qoydu. Onunla da separatçılığın kitabı bağlandı və Azərbaycan tam suverenliyini bərpa etdi.***

## Müasir Azərbaycanın suverenliyi xalqımızın milli sərvətidir



Müstəqil Azərbaycan üçün də müstəqil dövlətini yaratmaq, inkişaf etdirmək çox böyük nailiyyətdir. Tarixin müxtəlif dövrlərində üzləşdiyi çətinliklərə, işğala, məhrumiyyətlərə baxmayaraq, heç bir qüvvə xalqımızın müstəqillik, dövlətçilik əzmini sarsıda bilmədi. 1991-ci il oktyabrın 18-də Azərbaycan dövlət müstəqilliyini bərpa etdi. Suverenlik həm də hakimiyyətin ali xüsusiyyətinin göstəricisidir. Sovetlər dövründə isə hakimiyyət ali xüsusiyyətdən məhrum edilmişdi.

Millət üçün suverenlik tək öz ölkəsinin sərhədləri daxilində deyil, həm də beynəlxalq aləmdə həlledici əhəmiyyət kəsb edir. Suverenlik dövlətin mövcudluğunun hüquqi əsası və onun beynəlxalq hüququn subyektinə çevrilməsinin başlıca şərtidir. Ümumiyyətlə, dövləti ərazi, əhali və siyasi hakimiyyət kimi obyektiv amillər hüquqi müstəvidə nəzərə alınmaqla onları özündə ehtiva edən dövlətin qurulması üçün suverenlik xüsusiyyətinə malik olması labüd və zəruridir. Dövlətin mövcudluğu və institusional davamlılığı suverenliyin əsas şərtidir.

İngiltərəli tədqiqatçı E.Xinsli suverenliyə mühüm siyasi və hüquqi anlayış kimi baxaraq, onun cəmiyyətdə ali və mütləq siyasi hakimiyyətin mövcudluğu haqqında ideyanı əhatə etdiyini bildirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2024-cü il sentyabrın 19-da "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən Azərbaycan dövlətinin, xalqımızın tarixində ən parlaq səhifələrdən biri olan 20 sentyabr tarixi 2024-cü ildən başlayaraq ölkəmizdə "Dövlət Suverenliyi Günü" kimi qeyd edilir. Bu əlamətdar gün Azərbaycanın müstəqillik tarixinin bir simvoludur.

(Ardı 4-cü səhifədə)

## Təlim peşəkarlığı yüksəldir...



2021-ci ilin payızında dəniz səviyyəsindən min metrlərlə yüksəklikdə döyüş növbətçiliyi aparan əsgərlərlə söhbətləşəndə qətiyyətlə əmin olmuşdum ki, hərbi xidmət dövründə Azərbaycan əsgəri üçün bircə fəsil olur - Vətənə xidmət fəsli. Qışın sazağı-şaxtası, yayın istisi-bürküsü Azərbaycan əsgərinin ruhuna - Vətən sevgisinə yaxın düşə bilmir. Bu ilin yayı sərt keçir; bu sərtliyi həzinliklə əsən ufacıq meh bircə duyum qədərincə yumşaltsa da, bürkü bürkülüyündədi, istilər istiliyində, Azərbaycan əsgəri - Vətənə sədaqətlə xidmətində...

Hərbi hissədə artilleriyaçıların təlimidi. Hər təlimin mahiyyətində pedaqoji proses dayanır - təlim də öyrədir, öyrədilmişləri cilalayır, yeni vərdişlər aşılayır, mənimsənilmişləri təkmilləşdirir. Bu təlim də topun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsində əhəmiyyətli olacaq.

(Ardı 3-cü səhifədə)

## Hərbi intizamın "güzgü"sü



Səhərin sakitliyini pozan gur addım səsləri "N" hərbi hissəsinin təlim meydanında sanki bir ritm kimi səslənirdi. Qətiyyətli baxışlar, sinxron hərəkətlər, səsli əmr və ardınca səslənən nizamlı "bir, iki" çağırışları - bütün bunlar əsgərlərin hərbi intizamı mənimsəməsinin canlı təsdiqi idi.

Sıra hazırlığı məşğələsi gənc əsgərlər üçün sadəcə bir hərbi təlim deyil, Vətənə xidmət yolunda ilk addımlardan biri sayılır. Onların düzülüşdəki möhkəm duruşu, addımların ardıcıllığı, əllərin və ayaqların hərəkətindəki ahəngdarlıq qəlbimizə qürur bəxş edirdi.

(Ardı 5-ci səhifədə)

## Əsgərin sağlamlığı, ordunun gücüdür



Son illərdə Azərbaycan Respublikası səhiyyə sistemi öz inkişafında mühüm mərhələyə qədəm qoyub. Dövlətimizin sosial siyasətinin prioritet istiqamətlərindən biri olan səhiyyə sahəsində həyata keçirilən islahatlar, qəbul olunan strateji qərarlar və görülən praktiki işlər xalqın sağlamlığının qorunmasına yönəlib.

Müasir səhiyyə siyasəti həm normativ-hüquqi, həm də infrastruktur baxımından yeni keyfiyyət mərhələsini təmin edib. Xüsusilə regionlarda inşa olunan və ən müasir tibbi avadanlıqlarla təchiz edilən xəstəxanalar, diaqnostika mərkəzləri, doğum evləri əhalinin yüksək səviyyədə tibbi xidmətlə təmin edilməsində mühüm rol oynayır.

Tibb sahəsində mütəxəssis hazırlığının gücləndirilməsi, kadrların beynəlxalq təcrübəyə əsaslanan proqramlarla təlimə cəlb edilməsi, əhalinin icbari tibbi sığorta sistemi çərçivəsində daha geniş tibbi xidmət alması səhiyyədə mühüm dönüş nöqtəsi kimi dəyərləndirilir.

(Ardı 6-cı səhifədə)

## İstanbulda növbəti TEKNOFEST-ə start verilib

Sentyabrın 17-dən İstanbulda dünyanın ən böyük aviasiya, kosmos və texnologiya festivalı olan TEKNOFEST-ə start verilib.

AZƏRTAC xəbər verir ki, festivalda 58 əsas və 137 alt kateqoriya üzrə keçiriləcək yarışmalarda ilkin mərhələni keçən komandalar 85 milyon lirədən artıq maddi dəstək əldə edəcəklər. Yarışmada qalib gələnlərə isə ümumilikdə 65 milyon lirədən çox mükafat veriləcək.

Türkiyə Texnologiya Komandası Vəqfi (T3 Vəqfi) və Sənaye və Texnologiya Nazirliyinin təşəbbüsü ilə 13-cü dəfə keçirilən festival çərçivəsində təşkil olunan texnologiya müsabiqələrinə arzularını gerçəkləşdirmək istəyən 565 mindən çox komanda və 1 milyon 100 min iştirakçı müraciət edib.

İndiyədək müxtəlif tədbirləri ilə təxminən 11 milyon ziyarətçi qəbul edən TEKNOFEST-də hava nümayişləri, konsertlər, səhnə proqramları, sərgilər, maarifləndirici ustad dərsləri, simulyasiya təcrübə zonaları, planetarium, elm şouları, TEKNOFEST Zaman Tuneli, milli dəniz, quru və hava texnikasının sərgisi, yarmarkalar və şagirdlər üçün xüsusi ilk uçuş proqramları kimi bir çox təcrübə təqdim olunacaq.

Bundan əlavə TEKNOFEST İstanbul həm də aviasiya və müdafiə sənayesinin hava nümayişlərinə ev sahibliyi edəcək. Festivalda "SOLOTÜRK" və "Türk Ulduzları"nın şouları ilə yanaşı, "F-16" qırıcı təyyarələri də uçuş edəcək. Tədbirdə, həmçinin Türkiyənin müdafiə sənayesinin qürur mənbələrindən olan "ATAK" helikopterlərinin, "Hürkuş" təyyarəsinin, "ANKA", "Bayraktar TB2", "Bayraktar TB3" və "Bayraktar AKINCI" tipli pilotsuz uçuş aparatlarının da nümayişi nəzərdə tutulur.

Tədbir sentyabrın 21-dək Atatürk Hava Limanının ərazisində keçiriləcək.

# Müdafiə naziri Çin Xalq Respublikasına işgüzar səfər edib



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Çin Xalq Respublikasının milli müdafiə naziri admiral Dong Junun dəvəti ilə 12-ci Syanşan Forumunda iştirak etmək üçün Pekində işgüzar səfərdədir.

Müdafiə Nazirliyi xəbər verir ki, sentyabrın 18-də müdafiə naziri "Beynəlxalq düzənin qorunması və dinc inkişafın təşviqi" şüarı ilə keçirilən 12-ci Pekin Syanşan Forumunun rəsmi açılış mərasimində iştirak edib.

Forum çərçivəsində general-polkovnik Z.Həsənov çinli həmkarı admiral D.Jun ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Forum 100-dən çox ölkənin müdafiə qurumlarının rəhbər şəxslərinin, beynəlxalq təşkilatların və analitik mərkəzlərin nümayəndələrinin, eləcə də yüksək rütbəli hərbçilərin, hərbi və təhlükəsizlik məsələləri üzrə nüfuzlu ekspertlərin iştirakı ilə keçirilib.








# Uğurlu təlimlər - yeni perspektivlər



Hər il olduğu kimi, bu ilin ikinci tədris dövrü də praktiki məşğələlərin icrası ilə yadda qaldı. Bütün qoşun növləri yeni dərs ilinə "Həyəcan"la başladılar. Manqa hazırlığı ilə başlayan məşğələlər tabor hazırlığı ilə yekunlaşdı. Təlimdə əsgərlərlə bərabər zabit, gizir, çavuş heyəti də iştirak edib. Komandirlərin şəxsi heyətlə birgə fəaliyyət göstərməsi təsadüfi deyil. Onlar hər zaman tabeliyində olanlara nümunə olmaqla bütün tapşırıqların icrasında öndə olublar. Bu da əsgərlərdə hərbi xidmətin nümunəvi yerinə yetirilməsində və verilən tapşırıqların icrasında ruh yüksəkliyinə səbəb olub.

Yeni tədris dövrünün ilk həftəsi hərbçilər arasında həm də "Həyəcan" həftəsi adlanır. Motoatıcı, tank, artilleriya, mühəndis, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrində keçirilən praktiki məşqlər bir daha Azərbaycan Ordusunun döyüş və mənəvi hazırlığının yüksəldilməsinə xidmət etdiyi məlumdur. Bölmələr daimi yaşayış məntəqələrindən cəmləşmə rayonuna çıxmaq üçün bütün mərhələləri ardıcıllıqla yerinə yetirilməsinə çalışıblar.

Praktiki məşğələnin sonuncu günü bölmələr daimi dislokasiya yerindən "Həyəcan!" siqnalı ilə qalxaraq cəmləşmə rayonuna çıxdılar. Tapşırıq da elə cəmləşmə rayonuna qədər çıxmaq idi. Bölmələrin cəmləşmə rayonuna qədər icra edəcəyi tapşırıqlar da çoxdu. Hər bir tapşırığın yerinə yetirilməsi üçün vaxt nəzərdə tutulub.

Burada motoatıcı bölmələr, tank, artilleriya və başqa qoşun növləri üçün vaxt hesabı müxtəlifdir. Əsasən motoatıcı bölmələrin fəaliyyəti diqqəti cəlb edib. Belə ki, ilk olaraq "Həyəcan!" komandasından sonra növbətçi komandanı hərbi hissə növbətçisi ilə dəqiqləşdirir və vaxt itirmədən bölmə komandirinə çatdırır. Bütün hərəkətlər sürətlə icra olunaraq şəxsi heyəti məlumatlandırmaq üçün xüsusi siqnal işə salınır.

Ərazidə, yataqxanada, idman şəhərciyində və başqa yerlərdə məşğul olan əsgərlər "Həyəcan!" eşidir və dərhal yataqxanaya özlərini yetirirlər. Öncədən ayrılan qrup əsgər yataqxanasının pəncərələrini qara örtüklə bağlayır, yataq dəstlərini çarpayıların ayaq hissəsinə bükürlər. Növbətçi silah otağını açır və şəxsi heyətə ştat silahlarını xüsusi cədvəl əsasında verilməsini təmin edir. Əşya otağından şəxsi ləvazimatları: əşya torbalarını,



dəbilqələrini, zirehli gödəkçələrini və istehkam bellərini götürüb sıraya tələsirlər.

Əsgərlər təlim məşğələsi zamanı bütün hərəkətləri ən qısa müddətdə yerinə yetirməyə çalışırlar. Bu da ondan irəli gəlir ki, hər bir tapşırığın icrası üçün vaxt ayrılıb. Bölmələr verilən vaxtda silah-sursat, əşya çantaları və qeyd olunan bütün ləvazimatlarla təyin olunmuş yerlərdə düzülürlər. Sonra cəmləşmə rayonuna getmək üçün ayrılmış avtomobillərə minmə qaydalarını da düzgün yerinə yetirilməsinə nəzarət edir. Hətta, şəxsi heyətlə dolu avtomobillərin kolonda cəmləşmə rayonuna çatmasına da vaxt təyin olunur. Sürücülər müəyyən edilmiş sürətlə kolondan kənara çıxmamaqla mənzil başına çatmağa tələsirlər.

Döyüş texnikalarının və digər qoşun növlərinin də heyətləri eyni qaydada şəxsi silahları və əşyaları götürərək parka tələsirlər. Onlar təhkim olunmuş döyüş texnikalarının və silahların yanında öz yerlərini tuturlar. Sürücü-mexaniklər həmən texnikaların mühərriklərini işə salır. Heyət üzvləri də texnikalarda öz yerlərini tutaraq parkdan çıxmaq barədə komanda gözləyirlər. Komanda alandan sonra saxlanclardakı döyüş texnikaları ardıcıllıqla parkı tərk edir. Onlar təyin edilmiş ara məsafəsini saxlamaqla cəmləşmə rayonuna tələsirlər.

Bölmələr praktiki məşğələni yerinə yetirərkən müəyyən edilən ardıcıllığı nəzərə alaraq tapşırıqların öhdəsindən peşəkarlıqla gələ bildilər. Bu cür məşqlərin müntəzəm keçirilməsi, onun ardıcıllığının tez-tez şəxsi heyətə çatdırılması bir daha onu göstərir ki, bölmələrin qarşıda duran istənilən döyüş tapşırığını yerinə yetirməyə qadir olması təmin olunur.

Əməliyyat Komando birləşmələrinin gücləndirmə vasitələri ilə birlikdə dağlıq-meşəlik ərazilərdə hücumun keçirilməsi, taktiki hava desantı ilə qarşılıqlı əlaqədə birləşmə hədəfinin ələ keçirilməsi, gündüz və gecə hücum əməliyyatının aparılması, yaşayış məntəqələrinin düşməndən təmizlənməsi üzrə tapşırıqlar bir daha şəxsi heyətin döyüş vərdişlərinin artırılmasına xidmət edir.

Təlim yerində zabit Yaşar Səfərov davam edən taktiki-xüsusi təlimin mərhələlərini açıqlayır. Birinci mərhələdə döyüş həyəcanı ilə təlim rayonuna çıxarılmış bölmələr əməliyyata uy-



ğun qərar qəbul etməklə fəaliyyətləri icra etdiyini söyləyir. Bölmələr cəmləşmə rayonuna irəliləməklə müdafiə olunan şərti düşmən üzərinə hücum etməklə müqavimət göstərən qüvvələri darmadağın edir, tabor hədəflərinin ələ keçirilməsi planlaşdırıldığı müəyyən edilir.

Diqqətçəkən məqamlardan biri də şərti düşmənin böyük qüvvələrlə əks hücumunun dəf edilməsi, geri çəkilərkən onun tamamilə məhv edilməsi üçün görüləcək tədbirlər, əlverişli hədəflərin tutulması, yaşayış məntəqələrinin düşməndən təmizlənməsi də təlimi həm maraqlı həm də effektiv edən elementlərdəndir.

Cəlb olunan bölmələr arasında tank və mexanikləşdirilmiş bölmələrin fəaliyyətləri, onların bacarıqla idarə etmə səriştələrini təkmilləşdirilməsi, boş atım və təqlid etmə vasitələrindən istifadə etmək, qarşıdakı hədəflərə atışların uğurla yerinə yetirilməsi mərhələsi də diqqət çəkən oldu.

Təlimin sonunda komandir və qərargahların fəaliyyətləri ayrı-ayrılıqda müsbət qiymətləndirilmişdi.

Sonda zabit Yaşar Səfərov qeyd etdi ki, hər tədris dövrünün sonuna yaxın bu kimi təlimlər plana uyğun keçirilir. Bölmələrin müntəzəm olaraq təlim mərkəzlərinə çıxarılması, onların çöl-səhra şəraitində bir neçə gün qalması, həmçinin cəlb olunan döyüşçülərə fərdi və qrup şəklində məhv ediləcək hədəflərin verilməsi gerçək döyüşü xatırladır. Praktiki olaraq əsgərlər tərəfindən hədəflərə real atəşlərin açılması onların döyüş hazırlığının artırılmasına xidmət edir. Bugünkü təlimin də mahiyyəti budur. Həm fərdi qaydada, həm də qrup halında məhv ediləcək hədəflər təlim iştirakçıları tərəfindən dəqiqliklə sıradan çıxarıldı. Bu da təlimin uğurla başa çatması deməkdir.

2020-ci ilin sentyabr ayının 27-də başlayan "əks-hücum" əməliyyatı 44 gün müddətində 30 ilə yaxın Ermənistan ordusu tərəfindən işğal edilmiş ərazilərin azad edilməsi ilə başa çatdı. Müharibə zamanı döyüşdə hər bir qazanılmış qələbənin təməlində hərbçilərin güclü hazırlığı dayanırdı. Tarixi Zəfərdən sonra da ordumuzun döyüş və mənəvi hazırlığının gücləndirilməsi daha da intensiv xarakter aldı. Günbəgün yenilənən təlim meydanları xalqımızın və dövlətimizin hər zaman təhdidlərdən qorunmasına etibarlı zəmin yaradır.

Müzəffər Azərbaycan Ordusu on illər ərzində Ermənistan silahlı qüvvələrinin işğalı altında olan torpaqları azad etmək üçün təlimlərdə bu cür mətinləşdi. Bu gün isə ordumuzun qarşısında duran əsas vəzifə döyüş hazırlığını durmadan artırmaq və ölkəmizin ərazi bütövlüyünə qarşı yönəlmiş hər hansı təhdidin qarşısını uğurla almaqdır.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# MMU-da Banqladeş nümayəndə heyəti ilə görüş keçirilib







*Banqladeş Xalq Respublikası Milli Müdafiə Kollecinin "Silahlı Qüvvələrin döyüş kursu"nun rəhbər və dinləyici heyəti "Xarici tədris gəzintisi" çərçivəsində ölkəmizə səfər edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, Milli Müdafiə Universitetinin (MMU) rektorunun Elm və Təhsil üzrə müavini general-mayor Arif Həsənov briqada generalı Mostafizur Rahmanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

MMU-da keçirilən görüşdə banqladeşli qonaqlara universitetin yaranma tarixi, təhsil sistemi və əsas fəaliyyət istiqamətləri ilə bağlı brifinq təqdim olunub, Azərbaycan Ordusunda hərbi təhsil sahəsində aparılan uğurlu islahatlar barədə geniş məlumat verilib.

Görüşdə hərbi təhsilin daha da inkişaf etdirilməsi istiqamətində maraq doğuran məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb, qarşılıqlı suallar cavablandırılıb.

Briqada generalı M.Rahman xatirə kitabına ürək sözlərini yazıb.

Səfər çərçivəsində Banqladeş Xalq Respublikası Milli Müdafiə Kollecinin nümayəndə heyəti Heydər Əliyev adına Hərbi İnstitutu ziyarət edib. Qonaqlara hərbi institutun yaranma tarixi və əsas fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib.

Keçirilən görüşlərin sonunda qarşılıqlı hədiyyələr təqdim olunub və birgə xatirə fotosu çəkdirilib.

*Reportaj*

# Təlim peşəkarlığı yüksəldir...

(Əvvəli 1-ci səhifədə)

Tarixi Zəfərdən sonra dislokasiya yeri azad olunmuş rayonlarımızdan birində olan hərbi hissədə ezamiyyətdə olanda mayor Faiq Mehdiyev demişdi ki, hər təlim müəyyən mənada təkrardı, təkmilləşdirmədi, nəticə etibarilə döyüş hazırlığının yüksəlişidi. Topun şəxsi heyəti hər təlimdə gerçək döyüş şəraitində olduğu kimi iştirak edir. Bu baxımdan təlim həm də şəxsi heyətin mənəvi-psixoloji hazırlığında vasitə olur. Mayor Faiq Mehdiyevdən eşitdiklərimi bir qədər fərqli formatda leytenant Sənan Teymurovdan eşidirik...

Fikrini bir atalar sözü ilə tamamlamışdı: "Dama-dama göl olar". Azərbaycan əsgərinin mənəvi dünyasını nəhrləşdirən, dəryalaşdıran təlim onda bizim də mənəvi dünyamızın işığına dönmüşdü. Bugünkü təlimi “N” hərbi hissəsində Zəfərdən sonra gördüyüm ilk təlimdə könlümə köçürdüyüm duyğuların işığında izləyirəm; bugünkü təlimdə də işğaldan azad olunmuş ərazilərimizdə (və sonralar digər ərazilərimizdə!) gözlərimə, gözlərimdən könlümə köçürdüyüm təlimlərin hərbi (və mənəvi!) eyniliyini görürəm...

Top komandiri çavuş Cəsur Cəsarətov İkinci Qarabağ müharibəsi iştirakçısıdır. Asudə vaxtlarda da, təlimlərdən sonra da əsgərlər müharibə təəssüratlarından danışırlar. Bu söhbətlər təlimin mənəvi davamına dönür, onların artilleriyaya marağının sevgiyə çevrilməsində vəsilə olur; artilleriyaya sevgi orduya sevgi kimi yaşadılır, orduya sevgi Vətənə sevgidi. Bugünkü təlimi də Vətənə sevginin zərrəsi bilirik, əsgərlər də, biz də...

Təlim təlimatla başlayır. Təlimin təliməqədərki mərhələsində təlimat top heyətinin yerinə yetirməli olduğu təmrinləri (vərdişləri) ayrılıqda və vəhdətdə xatırlatmadır: bugünkü təlimdə topun şəxsi heyəti atəş mövqeyinin necə tutulmasını, komandirin müvafiq əmri ilə necə tərk edilməsini, nişangahın qurulmasını, normativlərin yerinə yetirilməsini təkrarlayacaq. Şagird dərsi yaxşı bilirsə, cavab verməyə can atır. İdmançı qələbəsinə əmindirsə, görüşün (yarışın) tez başlamasını arzulayır. Hiss edirəm ki, əsgərlər əmrin veriləcəyi anın intizarındadır. Komandir əmr vermir, İkinci Qarabağ müharibəsindən, müharibədə bu topun iştirakından, artilleriyaçıların döyüş əmrlərini necə cəsarətlə, sədaqətlə, məsuliyyətlə yerinə yetirmələrindən söz açır. Bu, təlimin mənəvi başlanğıcıdır. Hər təlimdə olduğu kimi, bu təlimdə də maraq istəyə, istək təşnəliyə çevrilməkdədi. Həzin-həzin meh əsir. Komandir bu həzin həzinlikdə yerinə yetirilməli təmrinləri (təcrübi vərdişləri) ardıcıllıqla bir daha xatırladır. Əsgərlərin baxışları aramla, kirpik-kirpik topa yönəlir. Bir azdan şəxsi heyət əmrin icrasına başlayacaq. Hansı duyğuların cazibəsiyləsə İkinci Qarabağ müharibəsində artilleriyaçılarımızın döyüşlərini xatırlayıram. Mənə elə gəlir ki, hər biri Topçu Vüsaldı - cəsarətli, dönməz, istəkli, məsuliyyətli. Fikrimi kapitan Məmmədağa Cahangirov da bəyənir:



- Divizionun şəxsi heyəti yüksək döyüş hazırlığına malikdir. Hər birinin özünün yerinə yetirməli vəzifə borcu olsa da, digər hərbi ixtisasları da mənimsəyiblər. Bu, marağın nəticəsidir. Tuşlayıcı həm də atıcıdır formatında. Yəni, əsgər təkcə özünün deyil, digərlərinin də hərbi vəzifələrini mənimsəyib.

Əsgərlər mövzunun müvafiq təmrinlərini tələsmədən (və ləngimədən) yerinə yetirirlər. Cəldlik səlisliklə, səlislik dəqiqlik, dəqiqlik təlimin nəticəsidir. Kapitan Məmmədağa Cahangirov top komandiri çavuş Cəsur Cəsarətov da, leytenant Sənan Teymurov da təlimin gedişindən də, təmrinlərin nəzəriyyəyə uyğunluğundan da, təlimatda nəzərdə tutulan müddətdən tez yerinə yetirilməsindən də razı qalıblar. Əsgərlər məmnunluqla top komandirinə baxırlar. Bu baxışlarda məsuliyyət var, hərbi xidmətə, hərbi ixtisasa sevgi var.

Dərslər, bu anlamda təlimlər biri digərinin məntiqi davamı olur. Bütün təlimlər yüksək səviyyədə yerinə yetirilməsə, şəxsi heyət mükəmməl artilleriyaçı ola bilməz. İkinci Qarabağ müharibəsindən əvvəl də belə olub, indi də belədir.

Leytenant Sənan Teymurov bildirir ki, bu heyət hərbi hissə daxilində keçirilən bütün təlimlərdə həmişə fərqlənir.

Əsgər Eltac Abdullayev tuşlayıcıdır. Hərbi xidmətinin ilk günlərini təkcə özünə deyil, bizə də maraqlı ovqatla xatırlayır:

- Etiraf edirəm ki, o günə kimi hansı hərbi ixtisas üzrə xidmət edəcəyim haqda düşünməmişdim. Artilleriyaçı olacağımı eşidəndə ilk olaraq İkinci Qarabağ müharibəsində hamının gördüyü, tanıdığı, sevdiyi Topçu Vüsalı xatırladım. Orta məktəbdə oxuyanda Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski kimi artilleriyaçı hərbçilərimizin mənəvi davamçıları sırasında olacağıma çox sevindim. İlkin hərbi bilikləri öyrənmişdik, hərbi hissədə müəyyən ardıcıllıqla keçirilən təlimlərin də iştirakçısı olmuşduq. Ancaq artilleriyaçı kimi bu hərbi hissədə formalaşdıq. Qoşunlarda xidmətə başlayanda təcrübəli əsgər yoldaşlarımızın, top komandirinin, eləcə də batareya komandirinin tövsiyələri bizim artilleriyaçı kimi yüksək döyüş hazırlığımızı təmin etdi. Bu hazırlığı təlimdən təlimə təkmilləşdiririk.

Təlim başa çatır. Topun şəxsi heyəti ilə söhbətləşməyə imkan yaranır. Nəsə soruşmaq istəyirəm. Nə soruşum? Məni bu "nəsə"lərin sıxıntısından hərbi xidmətə Naxçıvanın Şərur rayonundan çağırılmış əsgər Məhərrəm Babayev xilas edir. Söhbətə məntiqi başlanğıc kimi deyir ki, artilleriya ixtisası olduqca vacib ixtisasdır, biz bu ixtisas üzrə xidmətimizdən qürurlanırıq. “Bir dəfə əsgər yoldaşlarımdan biri soruşdu ki, səndə bu ixtisasa sevgi haradan yaranıb. Bir anlığa duruxdum. İkinci Qarabağ müharibəsində artilleriyaçılarımızın döyüşlərini xatırladım. Xatırladım ki, artilleriyaçılarımız düşmənlə məsafədən döyüşürdü, üzünü görmədikləri düşmənin komanda məntəqələrini, qərargahlarını, maşın karvanlarını, döyüşə hazırlaşan canlı qüvvəsini, müdafiə mövqelərini ... məhv edirdilər. Onların döyüş hazırlığına mən də həsəd aparırdım. Ancaq xəyalıma da gəlməzdi ki, nə vaxtsa mən də onlar kimi verilən koordinatların dəqiqliklə vurulmasını mükəmməl mənimsəyəcəm”.

Əsgər Roman Zurqari əsgər yoldaşının fikirlərinə söykək kimi deyir ki, mühüm olan hansı ixtisas üzrə xidmət deyil, hərbi xidmətdi. Biz Hərbi Andımıza, dövlətçiliyə, dövlətə sədaqətlə xidmət edirik, rabitəçi də olsaq belə xidmət edəcəkdik, dənizçi də. Yaxşı ki, artilleriyaçı olmuşuq. Bu, tamam başqa sevincdi...

Kapitan Məmmədağa Cahangirov İkinci Qarabağ müharibəsi ilə ordu quruculuğunun tarixi Zəfərdən sonrakı mərhələsi arasında bir sələf-xələf münasibəti yaradır:

- İkinci Qarabağ müharibəsində artilleriyaçılarımız bütün döyüşlərdə döyüşən ordu hissələrimizə atəş dəstəyi verirdi. Vaxtında verilən belə dəstək, mövqe qələbələrinin qazanılmasında əhəmiyyətli olurdu. Siz onların davamçılarısınız...

Təlim başa çatır.

Topun şəxsi heyəti atəş mövqeyinin tutulmasını, nişangahın qurulmasını, normativlərin yerinə yetirilməsini, komandirin əmri ilə mövqenin necə tərk edilməsini təkrarlayıb. Təkrarın rəvanlığı mövzuya tam bələdliyin nəticəsidi. Heyət tapşırığı mükəmməl yerinə yetirib.

Əsgər Rüstəm Hidayətzadə sözarası deyir ki, düşmənlə üzbəüz atışmağa nə var, görürsən, atırsan, mövqeni dəyişə-dəyişə döyüşürsən. Neçə kilometrlərlə uzaqda olan, gözlə görünməyən düşməni məhv etmək hünər işidi. Əsgər yoldaşları göstərir: Qürurlanıram ki, mən belə hünərvərlərin sırasındayam.

Əsgərin sevinci duyulan sevincdi, könülə yatımlı sevincdi...

Həzin-həzin əsən meh istinibürkünü bir qədər yumşaldıb. Günəş qüruba meyillənib. Topun şəxsi heyəti top komandirinin tapşırığı ilə təlimi bir də təkrarlayacaq. Mükəmməllik ordu quruculuğunun tarixi Zəfərdən sonrakı mərhələsinin tələbidi, bitkin, elmi və təcrübi əsaslarla aparılan təkrarın məntiqi nəticəsidi, döyüş hazırlığı prosesinin qələbəsidi...

Təlim peşəkarların döyüş hazırlığını daha da yüksəldir...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Qubadlıda ermənilər tərəfindən qətlə yetirilən ukraynalı Oleq Babakın xatirəsi Poltavada anılıb



1991-ci il sentyabrın 17-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən, Qubadlı rayonunda mülki Azərbaycan vətəndaşlarını qoruyarkən ermənilər tərəfindən qətlə yetirilən Oleq Babakın xatirəsi bu gün Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində anılıb.

AZƏRTAC xəbər verir ki, anım tədbirində Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev, Poltava Hərbi Administrasiyasının sədr müavini Anton Çubenko, Azərbaycan Silahlı Qüvvələrinin Ukraynadakı hərbi attaşesinin baş köməkçisi İbrahim Hüseynov, diplomatlar Elşən Rəşidov, Pərviz Əsədov, müharibə veteranları, Oleq Babakın valideynləri, ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Azərbaycan və Ukraynanın Dövlət himnləri səsləndirildikdən sonra çıxış edən səfir Seymur Mərdəliyev bildirib ki, Azərbaycan dövləti irqindən, milliyyətindən asılı olmayaraq, Vətənimizin bütövlüyü və suverenliyi uğrunda mübarizədə canlarından keçənlərin hər birinin xatirəsini əziz tutur, ailələrinə yardımlarını davam etdirir. Belə qəhrəmanlardan biri də 1991-ci ildə Qubadlı rayonunda mülki vətəndaşlarımızı erməni silahlılarından qoruyarkən həlak olan ukraynalı Oleq Babakdır.

"Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən dövlətimiz Oleq Babakın ailəsinə daim qayğı göstərir. Oleq Babakın ruhu da şaddır, çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib Ordumuz işğal altındakı torpaqlarımızı, o cümlədən Qubadlı rayonunu azad edib. İndi həmin ərazilərdə yenidənqurma və bərpa işləri aparılır", - deyə səfir əlavə edib.

Sonra çıxış edən Poltava Hərbi Administrasiyasının sədr müavini Anton Çubenko, Administrasiyanın Müharibə Veteranları və Şəhid Ailələri üzrə Məsləhət Şurasının sədri İvan Petrenko, Azərbaycanın Poltavadakı diasporunun rəhbəri Füzuli Qənbərov Oleq Babakın keçdiyi qəhrəmanlıq yolundan, Azərbaycan-Ukrayna dostluğundan danışıblar.

Oleq Babakın atası Yakov Babak göstərilən diqqət və qayğıya görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. "Azərbaycan dövləti bizə hər zaman yardım edir. Bu, bizə yaxşı yaşamağa kömək edir. Bizi unutmadığı üçün Azərbaycan dövlətinə təşəkkür edirəm", - deyə Yakov Babak bildirib.



Qeyd edək ki, Oleq Babak 1967-ci il fevralın 25-də Ukraynanın Poltava vilayətinin Viktoriya kəndində doğulub. SSRİ-nin Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlı 21-ci briqadasının siyasi hazırlıq üzrə bölük komandirinin müavini olan Oleq Babak 1991-ci ilin mart ayından Azərbaycanın Qubadlı rayonunda ictimai asayişin qorunması tapşırıqlarını yerinə yetirib. 1991-ci il aprelin 7-də Qubadlının Yuxarı Cibikli kəndində yerli sakinlərin ermənilər tərəfindən öldürülməsi xəbəri yayılandan sonra 24 yaşlı Oleq Babak SSRİ Daxili İşlər Nazirliyinin 21-ci briqadasının tərkibində hadisə yerinə göndərilir. Burada yerli kənd camaatı ilə birgə təxminən 70 nəfər erməni silahlısının mühasirəsinə düşür.

Ermənilərin yerli sakinləri təhvil verib geri çəkilmək tələbinə məhəl qoymayan 24 yaşlı ukraynalı leytenant bir nəfər də azərbaycanlının əsir düşməsinə imkan verməyərək, son gülləsinə qədər vuruşub və qəhrəmancasına həlak olub. Onun bu şücaəti nəticəsində yüzlərlə azərbaycanlının həyatı xilas olub.

SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının leytenantı Oleq Babak SSRİ prezidentinin 1991-ci il 17 sentyabr tarixli Fərmanı ilə ölümündən sonra "Sovet İttifaqı Qəhrəmanı" adına layiq görülüb.

## Müasir Azərbaycanın suverenliyi xalqımızın milli sərvətidir

**(Əvvəli 1-ci səhifədə)**

Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizin Ermənistanın hərbi təcavüzünə məruz qalması nəticəsində torpaqlarımızın 20 faizinin işğal edilməsi Azərbaycanın həmin ərazilər üzərində daxili suverenliyini məhdudlaşdırmışdı. Ermənistanda və işğal olunmuş Azərbaycan torpaqlarında azərbaycanlılara qarşı etnik təmizləmə aparılmış, dövrümüzün ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı törədilmiş, insanlıq əleyhinə cinayətlər, müxtəlif hərbi cinayətlər nəticəsində şəhərlərimiz, kəndlərimiz viran edilmiş, ölkəmizin təbii resursları talan olunmuşdur.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə heç bir nəticə vermədi.

Ermənistanın işğalçılıq planları, hərbi təcavüz cəhdi davam edirdi. Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-də ölkəmizə qarşı törətdiyi geniş miqyaslı təxribatın qarşısı alındı, əks-hücum əməliyyatı başladı. Bu, İkinci Qarabağ müharibəsi oldu. Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın edərək tarixi Zəfər qazandı. Sentyabr-noyabr aylarında Azərbaycan Silahlı Qüvvələri - Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Ağdamı və Laçını Şuşa şəhərini tamamilə, Xocavənd və Kəlbəcər rayonlarının geniş hissəsini, Xocalı və Tərtər rayonlarının bir hissəsini işğaldan azad etdi. Hərbi əməliyyatlar 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanan üçtərəfli Bəyanatla başa çatdı. 2023-cü il aprelin 23-də Laçın-Xankəndi yolunun başlanğıcında, Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaradıldı. Həmin nəzarət-buraxılış məntəqəsi hakimiyyətin aliliyinin və nəzarət funksiyasının yerinə yetirilməsinin təminatı oldu. Bu, Azərbaycanın Vətən müharibəsindən sonra əldə etdiyi növbəti tarixi nailiyyət hesab olunur.

Həkəri çayının üzərində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsinin qurulması ilə Azərbaycan bütün beynəlxalq sərhədləri boyunca suveren hakimiyyətini və nəzarətini, ərazi bütövlüyünü təmin etdi.

Qarabağda həyata keçirilmiş antiterror əməliyyatı Azərbaycanın suverenliyinin bərpası və ərazi bütövlüyünün təmin olunması istiqamətində mühüm bir mərhələ oldu. Üçtərəfli bəyanatda Ermənistan öz qoşunlarını Azərbaycan ərazisindən tam şəkildə çıxarmaq öhdəliyini öz üzərinə götürsədə xüsusilə 2020-ci ildən sonra istehsal edilmiş silah-sursatı, o cümlədən minaları qanunsuz yollarla Qarabağın Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərinə daşıyaraq 480 kilometrədək təmas xətti boyunca yeni əraziləri minalamışdı. 500-dən artıq döyüş mövqeyi və möhkəmləndirilmiş uzunmüddətli atəş nöqtəsi, müxtəlif tipli artilleriya qurğuları üçün 350-dən artıq atəş mövqeyi, kəşfiyyat-müşahidə vasitələri quraşdırmışdı. Ermənistan ərazidə hücum əməliyyatlarını yerinə yetirə bilən hərbi qüvvələr cəmləşdirmişdi.

2023-cü il sentyabrın 18-də Azərbaycanın hava sahəsindən uçuşlar yerinə yetirən sərnişin təyyarələrinin GPS naviqasiya sistemlərinə qarşı ərazilərimizdə olan qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən radiomaneələr tətbiq edilirdi.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərksilah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror əməliyyatına başlandı. Antiterror əməliyyatı sentyabrın 20-də başa çatdı. Rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirmişdir. Aparılan antiterror əməliyyatları nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edildi. Xalqımızın həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət Bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Bu gün Azərbaycan xalqı öz müstəqil dövlətinə sahibdir, şücaətli əsgər və zabitlərimizin, şəhidlərimizin qanı hesabına əldə edilmiş ərazi bütövlüyümüz, suverenliyimiz xalqımızın milli sərvətidir.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

## Dövlət başçımızın bu səfəri də tarixi Zəfərə ehtiramın təzahürüdür

Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19 və 20-də antiterror əməliyyatı həyata keçirdi. Bu əməliyyat İkinci Qarabağ müharibəsində qazanılmış tarixi Zəfərin məntiqi davamı idi. Əməliyyat nəticəsində qondarma qurum tarix səhnəsindən tamamilə silindi, Xocalı, Əsgəran, Xocavənd, Xankəndi, Ağdərə Ermənistanın qeyri-qanuni silahlı birləşmələrinin hissələrindən, silahlı dəstələrindən təmizləndi, Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu. Bu qələbəyə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə sentyabrın 20-si "Dövlət Suverenliyi Günü" kimi təsis edildi.

Konstitusiya və Suverenlik ilində Azərbaycanda Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü ikinci ildir ki, qeyd olunur. Bu yaşayış məntəqələrində işğaldan sonra Azərbaycan bayrağı 2023-cü il oktyabrın 15-də dalğalandırıldı. Dövlət bayrağımızı bu ərazilərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ucaltdı.

Vətən müharibəsində qazanılan böyük Zəfərdən sonra "20 sentyabr - Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü" təsis edildi. Bu tarix qürurla xatırlanan bir tarix kimi, Azərbaycan dövlətçiliyində mühüm yer tutur. 2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror əməliyyatı nəticəsində bu şəhərlər də işğaldan azad edilmişdi...

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarmışdır. Bu məqsədlə Prezident İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" yaradıldı. Bu ali təhsil ocağı da tarixi Zəfərin işığında fəaliyyət göstərir.

2023-cü il dekabrın 5-də qəbul edilmiş qanuna əsasən (Ağdam, Kəlbəcər və Tərtər rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilərək mərkəzi Ağdərə şəhəri olmaqla Ağdərə rayonu yaradıldı. Bu da Qarabağ iqtisadi rayonunun dinamik inkişafında müəyyən sosial əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Xankəndinə, Xocalıya, Xocavəndə, Ağdərəyə səfəri də tarixləşdi.

Bu səfərlərin hər birində işğaldan azad edilmiş ərazilərdə aparılan böyük quruculuq işlərinin tərkib hissələri olan müxtəlif infrastrukturların təməlqoyma mərasimlərində və açılışlarında iştirak edib. Bu səfərlərin hər biri tarixdir - Qarabağda aparılan quruculuq işlərinin tarixi.

8 noyabr 2023-cü ildə Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradda çıxışı zamanı demişdir: "Üç il bundan əvvəl Qarabağın tacı olan Şuşa şəhəri işğalçılardan azad edildi. Ondan bir gün sonra düşmən ordusu təslim oldu və ağ bayraq qaldırdı. Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə nəticələndi. Bu, tarixi hadisədir.

Azərbaycan xalqı uzun illər ərzində işğal dövründə bir nöqtəyə vururdu ki, tezliklə bizim torpaqlarımız işğalçılardan azad edilsin. Biz bu müqəddəs günü hər gün, hər saat öz əməyimizlə, işimizlə yaxınlaşdırırdıq.

Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionlara səfərləri quruculuq işlərinin vüsətləndirməyə xidmət etməklə, Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərə ehtiramın təzahürüdür...

**Səbinə XASAYEVA,**
**Milli Məclisin deputatı**

# Antiterror əməliyyatının 2-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilir







Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, sentyabrın 19-da Azərbaycan Ordusunda vətənpərvərlik nümunələrinin təbliği, şəxsi heyət arasında mənəvi-psixoloji və döyüş ruhunun daha da yüksəldilməsi məqsədilə antiterror əməliyyatının 2-ci ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, silsilə tədbirlər zamanı Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirlər çərçivəsində hərbi qulluqçular üçün Vətən müharibəsinə və antiterror əməliyyatına həsr olunan sənədli filmlər, videoçarxlar, foto və kitab sərgiləri nümayiş etdirilib.

Mərasimlərdə çıxış edənlər 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilən antiterror əməliyyatını Cənubi Qafqazda dayanıqlı sülhə, əmin-amanlığa və təhlükəsizliyə misilsiz töhfə verən tarixi missiya adlandıraraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirildiyini qürur hissi ilə qeyd ediblər.

Tədbirlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Ordumuzun keçirdiyi uğurlu antiterror əməliyyatının tarixi əhəmiyyəti, Azərbaycanın ərazi bütövlüyünün tam bərpa edilməsi ilə konstitusiya quruluşunun və dövlət suverenliyinin bütün ölkə ərazisində təmin olunması xüsusi vurğulanıb.

*Tarix yazan oğullar*

# Naxçıvan Muxtar Respublikasında şəhidlərin anım tədbirləri keçirilib







Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlər baş leytenant Əliyev Əli Cavad oğlu və baş çavuş Hüseynli Rəşad Ramiz oğlunun xatirəsinə həsr olunmuş anım tədbirləri keçirilib.

Naxçıvan Muxtar Respublikasının Şərur və Culfa rayonlarında keçirilən tədbirdə Rayon İcra Hakimiyyətinin rəhbərliyi, Naxçıvan MR-nın Ali Məclisinin deputatları, rayon hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidlərin ailə üzvləri, hərbçilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Anım mərasimində çıxış edənlər şəhidlərimizin əbədi ehtirama layiq olduqlarını bildirərək, onların şərəfli həyat yolundan, döyüşlərdə göstərdikləri igidliklərdən danışıblar.

Şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

**Bəxtiyar ƏLİYEV**
**Naxçıvan Şəhid Ailələri İctimai Birliyinin Mətbuat katibi, Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

*Sıra hazırlığı*

# Hərbi intizamın “güzgü”sü

(Əvvəli 1-ci səhifədə)

Məşğələ başa çatdıqdan sonra məşğələ rəhbəri, leytenant Rövşən Alməmmədov öyrədilənlərin mahiyyətini belə izah etdi: "Əsgərlərin hər birinə diqqətlə yanaşılır. Xidmətə başlayan gənclərin hərbi nizamnamələri mənimsəməsi əsas şərtdir. Bu sırada Sıra Nizamnaməsinin rolu xüsusilə vacibdir. Biz əsgərlərə həm nəzəri biliklər veririk, həm də praktiki məşğələlər keçiririk. Çünki sıra hazırlığı ordunun intizamını göstərən ən önəmli meyarlardan biridir. Doğrudur, gənc əsgərlər ilk günlərdə hərəkətləri dəqiq icra etməkdə çətinlik çəkirlər. Amma məqsədimiz onların tapşırıqları qüsursuz yerinə yetirməsinə nail olmaqdır. Sıra hazırlığı üzrə bacarığı möhkəm olan əsgər, şübhəsiz ki, intizamlı və qaydalara sadiq hərbçi olur", - deyə o bildirdi.

Məşğələ rəhbəri ilə söhbətimizi tamamladıqdan sonra məşğələdə iştirak edən gənc əsgərlərlə də həmsöhbət olduq. Onların hər biri sıra hazırlığının əhəmiyyətini fərqli şəkildə izah etdi.

Əsgər Elvin Qənbərli fikirlərini belə bölüşdü: "Sıra hazırlığı ilk baxışda sadə görünür.



Amma burada əsas məsələ vaxtında əmri eşidib düzgün icra etməkdir. Addım səsi təkcə səs deyil, hər bir əsgərin intizamının göstəricisidir. Bizim üçün bu, həm də kollektiv olaraq birləşmək deməkdir".

Əsgər Rauf Əliyev sıra hərəkətlərindəki sinxronluğun vacibliyinə diqqət çəkdi: "Burada hər kəsin addımı bir-birinə uyğun olmalıdır. Əgər bir nəfər səhv edərsə, bütöv düzülüşün ahəngi pozular. Ona görə də hər bir əsgər öz məsuliyyətini hiss etməlidir. Sıra hazırlığı bizi gündəlik xidmətə daha ciddi yanaşmağa sövq edir".

Əsgər Polad Quluzadə isə məşğələlərin tərbiyəvi tərəfini vurğuladı: "Mən burada öyrəndim ki, hərbi xidmət sadəcə silahı düzgün işlətməkdən ibarət deyil. Sıra hazırlığı əsgərin diqqətini, intizamını, məsuliyyətini formalaşdırır. Biz bir-birimizin hərəkətinə uyğunlaşmağı, birlikdə addımlamağı öyrənirik. Bu isə döyüş meydanında da vacib amillərdəndir".

Əsgər Səbuhi Zərbəli isə sıra hazırlığının mənəvi tərəflərinə toxundu: "Addım səslərimizi eşidəndə sanki ürəyimdə qürur hissi yaranır. Mən Vətənə xidmət edirəm və bu xidmətin intizamla başlaması mənə güc verir. Sıra hazırlığı məni daha inamlı edir".

Sıra hazırlığı sadəcə bir addımın düzgün atılması, bir əlin nizami hərəkəti deyil - bu, intizamın, vəhdətin, Vətənə sədaqətin başlanğıcıdır. Hər bir gənc əsgərin meydanda atdığı addım əslində Azərbaycan Ordusunun gücünün, xalqın iradəsinin sədasıdır. Bu səs illərlə davam edən mübarizənin, torpaqlarımızı qorumaq əzminin təntənəsidir.

Meydanda yan-yana, çiyin-çiyinə addımlayan əsgərlər bir amal uğrunda birləşən bütöv xalqın rəmzinə çevrilirlər. Onların səsi sadəcə təlim meydanında deyil, hər bir azərbaycanlının qəlbində əks-səda doğurur. Çünki Vətənə xidmətin əsas dayağı məhz intizamdan, qaydalara hörmətdən, verilən əmri qüsursuz icra etməkdən başlayır.

Bu gün sıra addımı ilə başlayan yol sabah döyüş meydanında qələbə marşına çevrilir. O addımlar ki, nizamlıdır, qətiyyətlidir, həm də xalqın gücünə söykənir - həmin addımlar heç vaxt geri çəkilməz, yalnız irəliyə, yalnız zəfərə aparar.

Azərbaycan əsgərinin addım səsi isə hər zaman bir həqiqəti təsdiqləyir: ordumuz intizamlıdır, əsgərlərimiz qətiyyətlidir, Vətənimizin gələcəyi isə əmin əllərdədir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

Görkəmli şəxsiyyətlər

# Polkovnik Kərim bəy Novruzov



*Kərim bəy Mirzə Baba bəy oğlu Novruzov 1838-ci ildə Yelizavetpol (Gəncə) qəzasının Qovlar kəndində (indiki Tovuz rayonu Qovlar şəhəri) zadəgan ailəsində anadan olub. O, təhsilini Tiflis kadet korpusunda alıb. 1853-cü ilin fevralında Zaqafqaziya Süvari Müsəlman Alayında vəkil kimi hərbi xidmətə başlayıb. 3 iyun 1856-cı ildə xidmətdə fərqləndiyinə görə ona "praporşik" hərbi rütbəsi verilib.*

1857-ci il mayın 20-də Zaqafqaziya Süvari Müsəlman Alayının ləğvi ilə əlaqədar ehtiyata buraxılan Kərim bəy Vətənə qayıdıb, 1858-ci ilin yanvarında yenidən xidmətə çağırılıb. 1859-cu il iyulun 11-də o, 18-ci Pereyaslav Draqun Alayına xidmətə göndərilib. 1861-ci il yanvarın 8-də ona "poruçik" rütbəsi verilib. 1858-1863-cü illərdə Qafqazda gedən hərbi əməliyyatlarda və yürüşlərdə iştirak edib. 1864-cü il iyulun 10-da "ştabs-kapitan" rütbəsi alıb. 1866-cı il martın 18-dən 1867-ci il avqustun 22-dək Qafqaz xəttindəki 5 nömrəli batalyona komandirlik edib. 13 may 1867-ci ildə "kapitan" rütbəsinə yüksəlib. 1867-ci ilin sentyabrında Əlahəzrət Virtenberq Kralının 16-cı Nijeqorod Draqun alayına köçürülüb. Xidmətdə fərqləndiyinə görə 22 iyul 1869-cu ildə 3-cü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilib. 1871-ci il aprelin 15-dən mayın 3-dək müvəqqəti olaraq alayın 1-ci eskadrilyasına komandirlik edib. 1872-ci il yanvarın 1-də 4-cü eskadrona təyin edilib, 1873-cü il iyunun 26-da eskadronun komandiri olub. 6 mart 1873-cü ildə ona "mayor" rütbəsi verilib.

1874-cü ildə xidmətdə fərqləndiyinə görə 3-cü dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif edilib. 1877-ci ilin yanvarında Əlahəzrət Saksen-Altenburq Sülalə Hersoqu ona Ernestin Hersoq Evinin 2-ci dərəcəli "Saksen-Altenburq" ordeni döş nişanını verib. 1877-ci il aprelin 10-da 3-cü və 4-cü eskadronların da daxil olduğu 2-ci diviziyanın komandiri təyin edilib. 31 iyul 1877-ci ildə 3-cü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunub.



1877-ci ilin oktyabrında Rusiya-Osmanlı müharibəsi zamanı döyüşlərdə fərqləndiyinə görə üzərində "İgidliyə görə" yazısı olan qızıl qılıncla təltif edilib.

1877-ci il dekabrın 1-də Kərim bəy 1-ci diviziyanın komandiri, dekabrın 15-də isə alay məhkəməsinin sədri təyin edilib. 1878-ci ilin oktyabrında "podpolkovnik" rütbəsinə layiq görülüb. 1880-ci il yanvarın 23-də Kərim bəy Novruzov yenidən 1-ci diviziyanın komandiri təyin edilib. Həmin ilin avqust-sentyabr aylarında o, müvəqqəti olaraq alayın təsərrüfat işlərinə rəhbərlik edib. Zabit rütbəsində 25 il qüsursuz xidmət etdiyi üçün sentyabrın 22-də 4-cü dərəcəli "Müqəddəs Vladimir" ordeni ilə təltif edilib.

1883-cü ilin dekabrında Kərim bəy İrəvan quberniyasının Zemstvo qvardiyasının inspektoru vəzifəsinə təyin edilib. 1886-cı ilin mayında o, səhhətinə görə tərxis ərizəsi yazıb. Dekabrın 24-də İmperator Əlahəzrətin Ali Sərəncamı ilə "polkovnik" hərbi rütbəsi verilərək, hərbi geyim forması daşıma hüququ və tam maaşı həcmində təqaüdlə təmin olunmaqla ordudan tərxis olunub.

1914-cü ilin sentyabrında "Müqəddəs Georgi" ordeninin o zamanlar ən yaşlı kavaleri polkovnik Kərim bəy Novruzov Rusiya İmperatorunun saray



rotasının (Rusiya imperatorları yanında fəxri keşikçi (qarovul) xidmətini aparan xüsusi hərbi hissə) komandiri təyin olunub.

Həmçinin o, xidməti müddətində 4-cü dərəcəli "Müqəddəs Georgi", 2-ci dərəcəli "Müqəddəs Stanislav" ordeni, müxtəlif medal və qiymətli hədiyyələrlə təltif edilib.

Kərim bəy Novruzov Əlahəzrət İmperatorun şəxsi Konvoyunun Müsəlman Mühafizələri Dəstəsinin keçmiş komandiri (1850-1852-ci illərdə) olmuş podpolkovnik Mehdi bəy Vəzirovun qızı Xeyrənisə xanımla ailəli olub. Onların Mehri (1881-?) və Fatimə (1883-?) adlı qızları olub.

Kərim bəy Novruzovun vəfat tarixi dəqiq bilinməsə də, bəzi mənbələrdə 1920-ci ildən sonra (təqribən 1922-ci ildə) vəfat etdiyi qeyd olunub.

**"Azərbaycan Ordusu"**

**(Əvvəli 1-ci səhifədə)**

Tibb xidməti

# Əsgərin sağlamlığı, ordunun gücüdür

Azərbaycan səhiyyəsində həyata keçirilən rəqəmsallaşma prosesləri də mühüm əhəmiyyət kəsb edir. Elektron səhiyyə sisteminin formalaşdırılması, xəstələrə aid məlumatların vahid bazada toplanması, onlayn xidmətlərin tətbiqi tibbi xidmətlərin keyfiyyətini artırmaqla yanaşı, şəffaflığı və operativliyi də təmin edir. Səhiyyə sektorunun inkişafı həm də sosial sabitliyin, vətəndaş məmnunluğunun və cəmiyyətin rifah halının yüksəlişinin göstəricisidir. Sağlam əhali güclü dövlətin dayağıdır. Bu səbəbdən səhiyyənin strateji inkişafı milli maraqların qorunması ilə birbaşa bağlıdır.

Son illərdə hərbi tibb sahəsində də mühüm nailiyyətlər əldə olunub. Dövlətin həyata keçirdiyi islahatlar və yaradılan yeni imkanlar sayəsində ordumuzun tibbi təminatı daha da güclənib. Müasir dünyada döyüş şəraitində hərbi tibb xidmətinin rolu yalnız yaralıların ilk tibbi yardım göstərilməsi ilə məhdudlaşmır, həm də onların vaxtında təxliyəsi, yüksək texnologiyalarla əməliyyatların həyata keçirilməsi və reabilitasiya işlərinin təşkili ilə birbaşa bağlıdır. Azərbaycan Ordusunda son illərdə açılan yeni hərbi hospitallar, müasir avadanlıqlarla təchiz edilmiş tibb mərkəzləri, həmçinin mobil hospital və səhra tibb məntəqələri hərbi qulluqçuların sağlamlığının etibarlı qorunmasına xidmət edir. Bu istiqamətdə kadr hazırlığına da xüsusi diqqət yetirilir. Hərbi tibb fakültəsində gənc həkim-zabitlər hazırlanır, onların beynəlxalq təcrübə qazanması üçün təlimlərdə, kurslarda təcrübə proqramlarında iştirakı təmin olunur.



2020-ci ilin 27 sentyabrında başlayan İkinci Qarabağ müharibəsində minlərlə yaralıya vaxtında tibbi yardım göstərilməsi, cəbhə bölgəsində mobil hospitalların operativ fəaliyyəti və həkimlərin fədakarlığı sayəsində çoxlu sayda zabit və əsgərin həyatının xilas edilməsi bu sahənin peşəkarlığının nəticəsi idi.

Hərbi tibb sistemində innovativ texnologiyaların tətbiqi genişlənir. Tibbi avadanlıqların modernləşdirilməsi, reabilitasiya mərkəzlərinin genişləndirilməsi hərbi qulluqçuların sağlamlığının etibarlı qorunmasına imkan yaradır.

Bütün bunlar göstərir ki, Azərbaycan Respublikasında hərbi tibb sahəsi artıq yalnız dəstək xidməti deyil, həm də ordunun döyüş qabiliyyətini və şəxsi heyətin mənəvi-psixoloji dayanıqlığını təmin edən mühüm strateji sahələrdən birinə çevrilib.

Azərbaycan Ordusunun gücü yalnız döyüşlərdə deyil, həm də əsgərin sağlamlığının keşiyində dayanan hərbi tibb xidməti ilə ölçülür. "N" hərbi hissəsində gənc tibb xidməti leytenantı Rəhim Məmmədli, 2025-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsini, "Müalicə işi" ixtisası üzrə bitirib. Gənc zabitin sözlərinə görə, həkimlik onun üçün yalnız peşə yox, həm də müqəddəs bir missiyadır.

Leytenant Rəhim Məmmədlinin ailəsində də həkimlər var - dayıları tibbin müxtəlif sahələrində fəaliyyət göstərirlər. Bu ənənə və ailə mühitindəki dəstək onun hərbi həkimlik yolunu seçməsində mühüm rol oynayıb.

- Cənab leytenant, hərbi həkimlik yolunu seçməyinizin əsas səbəbi nə olub?

- Uşaqlıqdan həkim olmaq arzusu ilə böyümüşəm. Ailəmizin bir çox üzvləri də həkimdirlər. Mən bu yolu hərbi sahədə davam etdirmək qərarına gəldim. Çünki əsgərin sağlamlığının qorunması, onun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması Vətənin müdafiəsi qədər vacibdir.

- Universitet illəriniz və bugünkü xidmətiniz arasında hansı bağlılığı görürsünüz?

- Universitetdə öyrəndiyimiz nəzəri bilikləri bu gün praktikada tətbiq edirik. Hərbi hissədə mən yalnız xəstəliyin müalicəsi ilə deyil, həm də profilaktika ilə məşğulam. Əsgərlərin sağlam həyat tərzinə əməl etməsi, zədələnmələrin qarşısının alınması bizim əsas işimizdir.

- Hərbi həkim olmaq məsuliyyət tələb edir. Bu çətinliklər sizi qorxutmur ki?

- Əksinə, bu məsuliyyət mənim üçün bir şərəfdir. Çünki hər bir əsgər bizə canını, sağlamlığını etibar edir. Mən bu etimadı doğrultmaq üçün bütün gücümü sərf edirəm.

Əsgər Əli Sərdarov Sumqayıt şəhərindən çağırılıb, 10 aydır Vətənə şərəflə xidmət edir. O, hərbi xidmətin onun həyatında böyük bir məktəb olduğunu vurğuladı, bildirdi ki, burada yalnız fiziki bacarıqlarını yox, həm də mənəvi keyfiyyətlərini inkişaf etdirirlər: "Hərbi xidmət mənim üçün həm də həyat dərsidir. Burada nizam-intizamın əhəmiyyətini, dostluğun və həmrəyliyin gücünü daha yaxşı başa düşürəm. Ən əsası isə Vətən sevgisinin nə qədər dərin və müqəddəs bir hiss olduğunu hiss edirəm. Hər bir əmrin yerinə yetirilməsi, hər bir tapşırığın icrası mənə ölkəmə, xalqıma olan məsuliyyətimi xatırladır. Bu müddət ərzində qazandığım təcrübələr və dostluqlar gələcək həyatım üçün əvəzsiz sərvət olacaq".

Azərbaycanın hərbi tibb sahəsində əldə etdiyi uğurlar, gənc həkim-zabitlərin fədakarlığı və əsgərlərin Vətənə bağlılığı göstərir ki, ordumuz yalnız silah və texnika ilə deyil, həm də yüksək peşəkarlığı və sağlam dayağı ilə güclüdür.

Bu gün hər bir əsgər, hər bir tibb işçisi ölkəmizin gücünün və əmin-amanlığının təminatçısıdır. Onların zəhməti, fədakarlığı və peşəkarlığı sayəsində Azərbaycan Ordusu yalnız döyüş meydanında deyil, həm də hərbi qulluqçuların sağlamlığının keşiyində dayanan etibarlı bir qüvvəyə çevrilib. Hərbi tibb və xidmət sahəsində qazandığımız nailiyyətlər, dövlətimizin və xalqımızın rifahı üçün atılmış möhkəm və etibarlı addımlar kimi tarixdə öz izini qoyur.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsi – qrup rəhbərinə kömək)

**Mövzu:** Müstəqillik tariximiz. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.

**Suallar:**

**1. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**2. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.**

### Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu

1918-ci il mayın 28-də yaradılan Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, xalqımızın tarixində mühüm bir hadisə idi. Belə ki, əsrlər boyu müstəqillik arzusu ilə yaşayan xalqımız, nəhayət ki, öz müstəqilliyinə nail oldu.

Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələsi başladı. Çox mürəkkəb daxili və beynəlxalq şəraitdə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin əsas hissəsini, ilk növbədə, Azərbaycanın müstəqilliyinin dünya dövlətləri tərəfindən tanınmasına nail olmaq, qonşu dövlətlərlə münasibətləri qaydaya salmaq, həmçinin Cənubi Qafqaz respublikaları arasında mübahisəli məsələlərin, xüsusilə Ermənistanın ərazi iddiası məsələsinin həlli təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə xarici siyasət və diplomatik əlaqələr Xarici İşlər Nazirliyi, Azərbaycanın xarici dövlətlərdəki səfirlikləri, diplomatik nümayəndəlikləri, konsulluqları, habelə xarici dövlətlərin ölkəmizdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə həyata keçirilmişdir.

1918-ci il iyunun 4-də müstəqil Azərbaycan hökuməti ilə Osmanlı dövləti arasında imzalanan "Qarşılıqlı yardım və dostluq haqqında" müqavilə Cümhuriyyətin ilk diplomatik sənədi kimi qəbul edilir. 1918-ci il sentyabrın 15-də Bakının işğaldan azad edilməsi Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı tarixinə yazılan şanlı səhifələrdəndir. Noyabrın 16-da Bakıda yenidən fəaliyyətə başlamış Azərbaycan Milli Şurası respublikada ali hakimiyyət orqanı kimi 120 nəfərdən ibarət Azərbaycan Cümhuriyyəti Parlamentini yaratmaq haqqında Qanun qəbul etdi.

Bu dövrdə AXC-nin parlamenti və hökuməti xarici təhlükənin qarşısını almaq üçün müstəqil respublikanın beynəlxalq aləmdə tanınması istiqamətində böyük iş aparırdı. 1918-ci il dekabrın 7-də Azərbaycan parlamenti Paris Sülh Konfransında iştirak etmək üçün parlamentin sədri Ə.M.Topçubaşovun başçılığı ilə geniş səlahiyyətlərə malik xüsusi nümayəndə heyətinin göndərilməsi haqqında qərar qəbul etdi. Cümhuriyyət dövrünün görkəmli dövlət xadimlərindən biri olan Ə.M.Topçubaşov qarşıya çıxan bütün çətinliklərə baxmayaraq, AXC-nin tanınması üçün böyük fədakarlıq göstərdi. Nəticədə 1920-ci il yanvarın 20-də Azərbaycanın müttəfiq dövlətlərin Ali Şurası tərəfindən de-fakto tanınması haqqında qərar qəbul olundu.

Azərbaycanın müstəqilliyi Antanta Ali Şurası tərəfindən tanındıqdan sonra hökumətin hazırladığı "Qərbi Avropa və Amerikada Azərbaycan Cümhuriyyətinin diplomatik missiyalarının yaradılması və Paris Sülh Konfransındakı Azərbaycan nümayəndəliyinin ləğv edilməsi haqqında" qanun layihəsi parlamentdə müzakirə olunaraq qəbul edildi. Belçika, İsveçrə, Niderland, Çexiya, Slovakiya, Finlandiya və digər dövlətlər Bakıda öz konsulluqlarını açdılar. ABŞ, İngiltərə, Fransa və İtaliya Azərbaycan ilə iqtisadi əlaqələri genişləndirməyə başladı.

1920-ci il martın 20-də Azərbaycan ilə İran arasında əməkdaşlığın bütün sahələrini əhatə edən saziş və müqavilələr imzalandı. Tərəflər arasında imzalanan dostluq müqaviləsinə əsasən, İran AXC-ni de-yure tanıdığını bildirdi. Qısa müddətdə Tehranda Azərbaycanın səfirliyi, Təbrizdə baş konsulluğu, Rəştdə konsulluğu, Ənzəlidə, Məşhəddə vitse-konsulluğu, Xoy və Əhərdə konsul-agentlikləri yaradıldı. 1920-ci il aprelin ortalarında Azərbaycan parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveç, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada diplomatik nümayəndəliklərin təsis edilməsi haqqında qanun qəbul etdi.

1918-1920-ci illərdə AXC hökumətinin Ermənistan, Gürcüstan, Türkiyə, Dağlılar Respublikası və Türküstanda diplomatik nümayəndəlikləri, İranda səfirliyi, Kuban və Don hökumətləri yanında səlahiyyətli nümayəndəsi, Paris Sülh Konfransında səlahiyyətli nümayəndə heyəti fəaliyyət göstərmişdir. Beləliklə, aprel işğalı ərəfəsində AXC geniş beynəlxalq əlaqələr sisteminə daxil oldu. Lakin az sonra - aprelin 28-də XI Qızıl Ordunun Azərbaycanı işğalı ilə Xalq Cümhuriyyətinin süqut etməsi, ölkəmizin beynəlxalq münasibətlər sistemində müstəqil dövlət kimi iştirakını dayandırdı.

### Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində

XX yüzilliyin sonunda dünyada baş verən qlobal proseslər, Varşava Müqaviləsi Təşkilatının ləğv edilməsi, "soyuq müharibə"nin başa çatması, SSRİ-nin dağılması beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu.

Mühüm geosiyasi məkanda yerləşən Azərbaycan Respublikasının 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyini bəyan etməsi və 80-ci illərin sonu 90-cı illərin əvvəllərində beynəlxalq aləmdə baş verən dəyişikliklər milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət kursunun formalaşdırılmasını və həyata keçirilməsini ən vacib məsələ kimi ön plana çəkdi. Qısa müddət ərzində dünyanın bir sıra dövlətləri tərəfindən rəsmi şəkildə tanınmış Azərbaycan Respublikası 1992-ci il martın 2-də BMT-nin üzvlüyünə qəbul edildi.

Azərbaycan dövlətinin xarici siyasət fəaliyyətinin Ermənistanın hərbi təcavüzü ilə dərinləşən ciddi siyasi və iqtisadi problemlərlə müşayiət olunması onun diplomatiyası qarşısında çox mühüm vəzifələr qoyurdu. Təcavüzün və millətçi separatizmin qarşısını almaq, onların ağır nəticələrini aradan qaldırmaq, dövlətin ərazi bütövlüyünü və təhlükəsizliyini təmin etmək, dünya birliyi ilə siyasi, iqtisadi inteqrasiyaya girmək zərurəti məqsədyönlü, ardıcıl, fəal xarici siyasətin həyata keçirilməsini tələb edirdi. Beynəlxalq birliyi Azərbaycan ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin qurulması zəruriliyinə inandırmaq, milli maraqları dünya dövlətlərinin kəsişən və toqquşan mənafeləri ilə uzlaşdırmaq, Azərbaycanın müstəqilliyinə və təhlükəsizliyinə beynəlxalq təminat almaq üçün çox ciddi səylər edilməli, gərgin fəaliyyət göstərilməli idi.

Belə bir şəraitdə yalnız 1993-cü ilin ikinci yarısından Ulu Öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Həmin dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz, məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Azərbaycanın milli təhlükəsizliyi onun dünya və region dövlətləri, habelə beynəlxalq təşkilatlarla balanslaşdırılmış strateji xətt yeritməsini zərurətə çevirdi. Bu baxımdan, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsinə və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərindən biridir.

Azərbaycan beynəlxalq təşkilatlara üzv olmaqla yanaşı, onların işlərində müntəzəm, fəal iştirak edir, səmərəli əməkdaşlıq edirdi ki, bu da ölkəmizin problemlərini dünya ictimaiyyətinə çatdırmaq üçün mühüm əhəmiyyətə malik olurdu. Bu baxımdan, 1994-cü il mayın 4-də Ulu Öndər Heydər Əliyevin "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" imzalandı.

Azərbaycanın Avropa institutlarına inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna verdi. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında ölkəmiz Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul olundu.

Ulu Öndər Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına və dinamik şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyənləşdirən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri yeni müstəvidə daha da inkişaf etdirir. 2003-cü ildən başlayaraq, o cümlədən son iyirmi bir il ərzində xarici siyasət sahəsində böyük uğurlar əldə edilmişdir. Ölkəmiz ilə əməkdaşlıq etmək istəyən ölkələrin sayı artmış, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq genişlənmişdir. Bu baxımdan, Azərbaycanın 2004-cü ildə əsas məqsədi Cənubi Qafqaz dövlətlərinin siyasi, iqtisadi cəhətdən Avropa dəyərlərinə yaxınlaşmasını sürətləndirməkdən ibarət olan Avropa qonşuluq siyasətinə qoşulmuşdur. 2006-cı ildə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair Anlaşma Memorandumu imzalanmış, 2008-ci ildə Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramına qoşulmaqla bu siyasi, iqtisadi əməkdaşlıq daha da genişlənmiş və yeni mərhələyə qədəm qoymuşdur.

Dövlət və hökumət başçılarının, Nobel mükafatı laureatlarının, dünyada tanınmış ictimai-siyasi xadimlərin iştirakı ilə keçirilən Bakı Beynəlxalq Humanitar Forumu ənənə halını almışdır. Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransının VII Baş Assambleyasına, Dünya dini liderlərinin Sammitinə və digər nüfuzlu tədbirlərə ev sahibliyi edən Bakı artıq dünyanın qlobal səviyyəli tədbirlərinin keçirildiyi mərkəzlərdən biri kimi qəbul olunur. Bununla yanaşı, Azərbaycan müsəlman aləmində çox böyük hörmət və nüfuz qazanmışdır. Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin apardığı siyasət, yəni, həm ölkə daxilində, həm də xaricdə bu istiqamətdə Azərbaycanın həyata keçirdiyi tədbirlər İslam aləmində həmrəyliyi, əməkdaşlığı və müsəlman birliyini daha da möhkəmləndirir. Həmçinin, son illərdə ölkəmizin ev sahibliyi etdiyi, eləcə də dövlət başçısının təşəbbüsü ilə keçirilən bir sıra mühüm əhəmiyyət kəsb edən tədbirlər - VII Bakı Beynəlxalq Humanitar Forumu, VII Qlobal Bakı Forumu, Qoşulmama Hərəkatının Xarici İşlər Nazirləri Konfransı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclası, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Nazirlər toplantısı, Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi, Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü və s. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltmişdir.

Azərbaycan regionda yeni əməkdaşlıq formatlarının əsas təşəbbüskarı kimi çıxış edir və dövlət başçısının bütün səyləri regionun inkişafına, sabitliyin qorunub saxlanılmasına yönəlmişdir. Azərbaycan-Rusiya-İran, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-Türkiyə-Gürcüstan-İran və digər əməkdaşlıq formatları buna əyani sübutdur. Keçən dövr ərzində müxtəlif regional əməkdaşlıq formatları çərçivəsində öz təşəbbüskarlığı ilə seçilən ölkəmiz ilk dəfə olaraq dövlət başçıları səviyyəsində keçirilmiş Azərbaycan-Rusiya Regionlararası Forumuna, həmçinin, Azərbaycan, Gürcüstan, İran və Türkiyənin Xarici İşlər nazirlərinin birinci dördtərəfli görüşünə də ev sahibliyi etmişdir.

Ölkəmizin beynəlxalq enerji təhlükəsizliyinin təmin edilməsində rolu və yerini dəyərləndirən dünya ictimaiyyəti onu həm də, etibarlı tərəfdaşı kimi tanıyır. Respublikamızın karbohidrogen strategiyasının mühüm tərkib elementlərindən olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, eyni zamanda, ticarət və iqtisadi əlaqələrə müsbət təsir göstərən, dünyanın müxtəlif istiqamətlərini birləşdirən, Avrasiyanın nəqliyyat xəritəsini təzələyən Bakı-Tbilisi-Qars dəmir yolu xətti və lahiyəsi planlaşdırılan Zəngəzur dəhlizi Azərbaycana beynəlxalq aləmdə mühüm iqtisadi və strateji üstünlüklər qazandırmaqla yanaşı, bu gün bölgədə əməkdaşlığın, sülhün, təhlükəsizliyin təmin edilməsində xüsusi rol oynayır.

Hazırda dövlət başçısı cənab İlham Əliyevin beynəlxalq aləmdə milli maraqlarımızın qorunması istiqamətində gördüyü çoxşaxəli işlər, apardığı müstəqil xarici siyasəti Azərbaycan Respublikasının rolunun daha da artmasını mümkün edib. Məhz, dövlət başçısı cənab İlham Əliyevin gərgin əməyi sayəsində Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Nəzərə almaq lazımdır ki, yüzillik müstəqillik tarixinə malik olan bir çox ölkələr nə qədər cəhdlər etsələr də, BMT Təhlükəsizlik Şurasının tərkibinə düşə bilməyiblər. Bu onu təsdiq edirki, Azərbaycan dünya dövlətləri tərəfindən etibarlı tərəfdaş, güclü, qüdrətli ölkə kimi tanınır və qəbul edilir. 2011-ci il mayın 26-da Azərbaycan təşkilata üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək Qoşulmama Hərəkatına tamhüquqlu üzv kimi qəbul edilmişdir. Səkkiz ildən sonra isə ölkəmizə göstərilən hörmətə, inama və etimada görə 120 ölkənin birləşdiyi Qoşulmama hərəkatına sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul edilmişdir. Ölkəmizin Qoşulmama hərəkatı təşkilatının işində fəal iştirakı, bu təşkilata üzv ölkələrlə yaxından əməkdaşlıq münasibətlərinin qurulmasındakı uğurlu siyasəti və bu ölkələrin nümayiş etdirdikləri prinsipial mövqe sayəsində Vətən müharibəsi gedişində BMT Təhlükəsizlik Şurasında ölkəmizin mənafeyinə uyğun olmayan qətnamə lahiyəsinin qəbul edilməsinin qarşısı alınmışdır.

Ölkəmizi dünya birliyinə təqdim edən Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin balanslaşdırılmış çoxşaxəli siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin strategiya və gərgin diplomatik səyləri nəticəsində müasir Azərbaycan Respublikası beynəlxalq münasibətlərin tamhüquqlu subyektinə çevrilib. Sürətli iqtisadi inkişaf və dövlətlərarası münasibətlərdə beynəlxalq hüquq normalarına sadiqlik nümayiş etdirməsi isə ölkəmizi regional lider dövlətinə çevirib və beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanıdıb.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

## Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmətə qəbul elan edir

Müdafiə Nazirliyi müddətdən artıq həqiqi hərbi xidmətə qəbul elan edir. Sənəd qəbulu 18 sentyabr - 25 oktyabr tarixlərdə regional sənəd qəbulu mərkəzlərində və elektron qaydada olmaqla iki formada həyata keçiriləcəkdir.

Namizədlərin yuxarıdakı üsullardan hər hansı biri vasitəsilə sənədlərini təqdim etmələri yetərli hesab olunur. Sənəd qəbulu mərkəzləri Gəncə şəhərində Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzində (Ünvan: Gəncə şəhəri, Nizami Gəncəvi prospekti 56), Bakı şəhərində isə Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutunda (Ünvan: Bakı şəhəri, Xətai rayonu, Polad Həşimov küçəsi 9a) fəaliyyət göstərəcək.

"Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuların hazırlığı kursu"na ən azı ümumi orta təhsilli, müddətli həqiqi hərbi xidmətini başa vurmuş 35 yaşınadək hərbi vəzifəlilər (zabit, gizir, miçman hərbi rütbəsi olanlar istisna olmaqla), eləcə də ixtisasını dəyişmək və ya artırmaq arzusunda olan Silahlı Qüvvələrdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etmiş ("Hərbi xidmətkeçmə haqqında Əsasnamə"nin 156-cı maddəsinin "a" bəndinə (xidmət müddəti başa çatdığına görə), "q" bəndinə (ştat ixtisarına görə) əsasən ordu sıralarından ehtiyata buraxılmış) 40




yaşınadək hərbi vəzifəlilər və 30 yaşınadək qadın cinsli vətəndaşlar qəbul edilir.

Kursa qəbul üçün tələb olunan sənədlər:

- kursa qəbul olunmaq barədə ərizə;
- anket forması;
- tərcümeyi-hal (1 nüsxədə);
- təhsil haqqında sənədin surəti (1 nüsxədə);
- doğum haqqında şəhadətnamənin surəti (1 nüsxədə);
- yaşayış yeri və ailə tərkibi haqqında arayış (1 nüsxədə);
- əlavə peşə və ya ixtisasınız varsa təsdiqedici sənədlərin surəti (diplom, sertifikat, şəhadətnamə və s.);
- şəxsiyyət vəsiqəsinin surəti və ya yeni nəsil şəxsiyyət vəsiqəsindən çıxarış (1 nüsxədə);
- sürücülük vəsiqəsinin surəti (olduğu təqdirdə, 1 nüsxədə);
- nikah haqqında şəhadətnamənin surəti (evli olduqda, 1 nüsxədə);
- həyat yoldaşının və uşaqlarının şəxsiyyət vəsiqələrinin surəti (1 nüsxədə);
- rəngli fotoşəkil (baş geyimsiz, anfas, 6 ədəd 3x4 sm, 2 ədəd 4.5x6 sm və 3 ədəd 9x12 sm);
- hərbi biletin bütün vərəqlərinin notarial qaydada təsdiq olunmuş surəti (1 nüsxədə, kişi cinsli vətəndaşlar üçün);
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

Elektron qaydada müraciət etmək istəyən namizədlər mmu.edu.az saytının "Təhsil müəssisələrinə qəbul" bölməsindəki "Çavuş hazırlığı (MAHHXHQ)" hissəsinə keçid edərək elektron sənəd qəbulu portalından müvafiq sənədlərlə tanış ola və müraciət edə bilər.

Ətraflı məlumat üçün Milli Müdafiə Universitetinin rəsmi veb saytına (mmu.edu.az) keçid edə və ya Çağrı mərkəzi - *0811 (iş günlərində saat 09:00-dan 17:30-dək) ilə əlaqə saxlaya bilərsiniz.

## Quraqlıq Qazaxıstanda tarixi sirlərin üzə çıxmasına kömək edib



Quraqlıq səbəbindən Qazaxıstanın Türküstan vilayətində yerləşən Boqen su anbarında suyun səviyyəsi kəskin aşağı düşüb və bu, arxeoloqlara əvvəllər suyun altında qalmış sahələrdə tədqiqat aparmaq imkanı yaradıb.

Qazaxıstanın Elm və Ali Təhsil Nazirliyinin mətbuat xidməti xəbər verib ki, qazıntılar zamanı son paleolit və mezolit dövrlərinə aid daş alətlər - təxminən on xalsedon daş nümunəsi, nukleuslar, eləcə də kəsim və işləmə üçün lövhələr aşkarlanıb.



Həmçinin arxeoloqlar tunc dövrünə aid dəfn yerlərini üzə çıxarıblar. İnsanların qalıqları yaxşı vəziyyətdə qalmasa da, üzərində naxış olan keramik qablar, sırğalar, üzük, bilərziklər və muncuqlar tapılıb.

Bundan əlavə, eramızdan əvvəl və eramızın I əsrlərinə aid kanqlı-sarmat dövrünə məxsus dəfn yeri aşkar edilib. Burada döyüşçülərə məxsus ox ucluqları, bıçaq, kəmər toqqası və küp tapılıb. Bu da həmin ərazilərdə insanların qədimdən yaşadığını təsdiqləyir.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Eldəniz Əzizli dünya çempionatında 7-ci medalını qazanıb və yeni rekordçu olub



Xorvatiyanın paytaxtı Zaqrebdə dünya çempionatı davam edir.

Yunan-Roma güləşi üzrə ilk medalçılar müəyyənləşib.

Azərbaycan təmsilçilərindən Eldəniz Əzizli (55 kiloqram) bürünc medal görüşündə qırğızıstanlı Ulan Uulu ilə qarşılaşıb. Rəqibinə elə ilk hissədə tam üstünlüklə (9:0) qalib gələn millimizin kapitanı dünya üçüncüsü olub. Beləliklə, karyerasında 7-ci dəfə böyüklər arasında fəxri kürsüyə qalxan (4 qızıl, 3 bürünc) Eldəniz bu göstəricidə Azərbaycan güləşinin yeni rekordçusu olub.

### Məhəmməd Salah UEFA Çempionlar Liqasında yeni rekorda imza atıb



İngiltərənin "Liverpul" komandasının futbolçusu Məhəmməd Salah UEFA Çempionlar Liqasında yeni rekorda imza atıb.

33 yaşlı misirli hücumçu ötən gün İspaniya təmsilçisi "Atletiko" (Madrid) ilə keçirilən I tur görüşünün ilk 6 dəqiqəsində 1 qol və 1 məhsuldar ötürmə edib. Forvard İngiltərə klublarının heyətində buna nail olan ilk oyunçu olub.

Qarşılaşma Mersisayd komandasının 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

Qeyd edək ki, "Qarabağ"ın Çempionlar Liqasının Liqa mərhələsindəki rəqiblərindən biri də "Liverpul" komandasıdır.

### Azərbaycanda keçiriləcək III MDB Oyunlarının medalları təqdim olunub




Azərbaycanda keçiriləcək III MDB Oyunlarının medalları təqdim olunub.

Medalların üzərində Oyunların rəsmi loqosu əks edilib.

Bu dizayn birliyi, idman ustalığını, gücü və mübarizə ruhunu simvolizə edir.

Yarışlarda ümumilikdə 1694 medal (505 qızıl, 505 gümüş, 684 bürünc) uğrunda mübarizə gedəcək. Bundan əlavə, qalib komandaların uğuruna ən çox töhfə verən idmançıların da xüsusi mükafatlarla təltif edilməsi nəzərdə tutulub.

Qeyd edək ki, III MDB Oyunları bu il sentyabrın 28-dən oktyabrın 8-dək Azərbaycanın yeddi şəhərində - Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə təşkil olunacaq. Yarışlar 12 idman məkanında keçiriləcək.

**AZƏRTAC-ın materialları əsasında**

# Xəbərlər: hadisələr, faktlar

### Qazaxıstan irimiqyaslı hərbi təlimlərə hazırlaşır



Qazaxıstan Silahlı Qüvvələrinin quru qoşunlarının döyüş hazırlığı proqramı çərçivəsində "Qərb" və "Şərq" regional komandanlıqlarının qoşunlarının iştirakı ilə Manqistau vilayətində "Aybalta-2025" ikitərəfli əməliyyat-taktiki komanda-qərargah təlimi keçiriləcək.

Qazaxıstan Müdafiə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, təlimlərdə bir sıra vilayətlərin ərazisi üzrə qüvvə və vasitələrin hərəkəti nəzərdə tutulur. Bölmələr (şəxsi heyət və hərbi texnika) kombinə edilmiş qaydada - dəmir yolu və avtomobil nəqliyyatı ilə hərəkət edəcək, bundan sonra daimi dislokasiya məntəqələrinə qayıdacaq.

### Çində aviasiya sərgisi başlayıb



Çinin Cilin əyalətinin Çançun şəhərində aviasiya sərgisi keçirilir. Sərgidə Çin xalq Azadlıq Ordusunun (ÇXAO) hərbi hava qüvvələrinin 16 növ təyyarəsi, o cümlədən KJ-500 erkən xəbərdaredici təyyarəsi, H-6 bombardmançısı, J-20S ikiyerlik qırıcısı, Y-20 nəqliyyat təyyarəsi, J-16 hücum təyyarəsi nümayiş olunub.

Sərgi çərçivəsində müxtəlif mövzularda təqdimatlar, konfranslar keçirilir. Bundan başqa, ÇXAO-nun hərbi hava qüvvələrinin "Qırmızı qartal" akrobatik qrupunun nümunəvi çıxışları olub. Aviaşounu 100 min nəfərin ziyarət edəcəyi gözlənilir.

### Estoniyanın hava məkanını pozan Rusiya "MiQ"lərini İtaliya "F-35"ləri dəf edib



Estoniyanın hava məkanına daxil olan Rusiyanın "MiQ-31" tipli üç hərbi təyyarəsinin İtaliya "F-35" qırıcı təyyarələri tərəfindən dəf edildiyi bildirilib.

İtaliyanın Baş nazirinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani böyük effektivlik nümayiş etdirən Hərbi Hava Qüvvələrini təbrik edib. Hökumət başçısı vurğulayıb ki, Estoniyanın - Avropa İttifaqının və NATO-nun hava məkanının pozulması qəbuledilməzdir.

"Şərq cinahını gücləndirmək üçün keçirilən əməliyyatda prioritet daha çox quru və hava hücumundan müdafiə komponentlərinə veriləcək. Biz müdafiə sisteminin bir hissəsi olacağıq. İtaliya bu əməliyyata qırıcı təyyarələr və yerüstü hava hücumundan müdafiə komponentinin gücləndirilməsi ilə töhfə verəcək", - deyə Antonio Tayani vurğulayıb.

**AZƏRTAC-ın materialları əsasında**

Mayor Məhərrəmov Vüqar İdris oğluna verilmiş MN № 00433519 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Hümbətov Elvin Arif oğluna verilmiş MV № 146851 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Bəxtiyar ƏLİYEV

Lisenziya № 361
Sifariş № 473
Nüsxə 3630